# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Qida təhlükəsizliyi sahəsində məhsulların izlənilməsi Qaydası”nın təsdiq edilməsi haqqında**

“Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə” 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 iyun tarixli 1723 nömrəli Fərmanının 1.2.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Qida təhlükəsizliyi sahəsində məhsulların izlənilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).
2. Bu Qərar “Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanunu dərc olunduğu gündən 2 (iki) il sonra qüvvəyə minir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 13 aprel 2023-cü il

№ 107

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2023-cü il 13 aprel
tarixli 107 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

## Qida təhlükəsizliyi sahəsində məhsulların izlənilməsi

## QAYDASI

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 27.4-cü maddəsinə uyğun olaraq hazırlanmışdır, qida və yem məhsullarının, qida məhsulları əldə edilən heyvanların, yaxud qida və yem məhsullarına əlavə edilməsi nəzərdə tutulan maddələrin hərəkətinin izlənilməsi, o cümlədən qida subyektini həmin məhsullarla təchiz edən subyektləri və ya qida subyektinin məhsulları ilə təchiz olunan subyektlərin müəyyən edilməsi qaydasını tənzimləyir.

1.2. Bu Qayda qida və yem məhsullarının ilkin istehsalı, istehsalı, emalı, dövriyyəsi (istehlakı istisna olmaqla), utilizasiyası və məhv edilməsi də daxil olmaqla, qida zəncirinin bütün mərhələlərində fəaliyyət göstərən qida zənciri subyektlərinə (bundan sonra – qida subyekti) şamil olunur.

1.3. Bu Qaydanın məqsədi qida subyektlərini qida və yem məhsulları, qida məhsulları əldə edilən heyvanlar, yaxud qida və yem məhsullarına əlavə edilməsi nəzərdə tutulan maddələrlə (bundan sonra – məhsullar) təchiz edən və ya onların məhsulları ilə təchiz etdiyi subyektləri müəyyən etməyə imkan verən izləmə sisteminin və prosedurlarının tətbiq edilməsini və bununla qida təhlükəsizliyi sahəsində mövcud olan tələblərə uyğun olmayan və (və ya) təhlükəli qida və yem məhsulları aşkarlandıqda, həmin məhsulların qida zənciri üzrə izlənilməsini, habelə istehlakçıların (istifadəçilərin) qida və yem məhsulu ilə bağlı dolğun və dəqiq məlumatlar əldə etməsini təmin etməkdən ibarətdir.

1.4. Bu Qaydanın məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.4.1. **izləmə sistemi** – qida subyekti tərəfindən formalaşdırılan, məhsulların hərəkətini izləməyə, o cümlədən qida subyektini məhsullarla təchiz edən subyektləri və ya qida subyektinin məhsulları

ilə təchiz olunan subyektləri müəyyən etməyə, habelə bununla bağlı məlumatların sənədləşdirilməsinə imkan verən izləmə prosedurlarının həyata keçirilməsini təmin edən tədbirlərin nizamlanmış məcmusu;

1.4.2. **izləmə prosedurları** – izləmə sisteminin tərkib hissəsi olan, həmin sistemi təsvir edən, məhsulların bu Qayda ilə müəyyən edilmiş tələblərə uyğun izlənilməsini və qida subyektini məhsullarla təchiz edən subyektlərin və ya qida subyektinin məhsulları ilə təchiz olunan subyektlərin müəyyən edilməsini təmin edən ardıcıl prosedurların məcmusu;

1.4.3. **partiya nömrəsi** - eyni istehsal növbəsində və yerdə ilkin istehsal, istehsal və emal olunan, qablaşdırılan, eyni texnoloji şərtlərlə əldə edilən məhsulların bir qrupunu və ya dəstini identifikasiya etməyə imkan verən nömrə;

1.4.4. **identikləşdirilmə məlumatları –** qida və yem məhsulunun adı, növü, istehsal tarixi, yararlılıq müddəti, mənşəyi, istehsalçının adı, ünvanı, partiya nömrəsi və qablaşdırma həcmi, heyvanın identikləşdirmə nömrəsi.

1.5. Bu Qaydada istifadə olunan digər anlayışlar Qanunla və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

## 2. Məhsulların izlənilməsinə dair ümumi tələblər

2.1. Qida zəncirinin hər bir mərhələsində fəaliyyət göstərən qida subyektləri, öz izləmə sistemləri və prosedurlarına əsaslanaraq qəbul etdikləri məhsulların bütün təchizatçılarının, bu Qaydanın 2.2-ci bəndi nəzərə alınmaqla məhsullarla təchiz etdiyi bütün subyektlərin müəyyənləşdirilməsi ilə bağlı məlumatları sənədləşdirməlidirlər.

2.2. Qida subyektindən bazarda, pərakəndə ticarət obyektlərində, ictimai iaşə müəssisələrində və ya məhsulların son istehlakçıya ötürülməsini həyata keçirən digər obyektlərdə məhsulların təqdim edildiyi istehlakçılar (istifadəçilər) barədə məlumatların sənədləşdirilməsi tələb olunmur.

2.3. Hər bir qida subyekti öz məhsulları ilə təchiz etdiyi subyektlərə məhsulları barədə tam və etibarlı identikləşdirilmə məlumatlarını təqdim etməlidir.

2.4. Qida subyekti Qanuna uyğun olaraq qeydiyyata alınmamış və ya təsdiq edilməmiş təchizatçıdan məhsulları qəbul etməməli və həmin subyektləri məhsulları ilə təchiz etməməlidir.

2.5. Məhsullarının izlənilməsi məqsədilə qida subyektləri aşağıdakıları təmin etməlidirlər:

2.5.1. bu Qaydanın tələblərinə cavab verən izləmə sistemi və prosedurlarını formalaşdırıb tətbiq etmək, təkmilləşdirmək və onların davamlı fəaliyyətini təmin etmək;

2.5.2. qəbul edilən məhsulların təchizatçısını və məhsulları ilə təchiz etdiyi subyektləri müəyyənləşdirmək;

2.5.3. bu Qaydanın 2.6-cı bəndi ilə müəyyən edilən məlumatları özündə ehtiva edən sənədləri tərtib etmək, həmin sənədləri məhsulların yararlılıq müddəti bitdikdən (qida məhsulları əldə edilən heyvanlara münasibətdə isə təchiz edildiyi və ya ötürüldüyü tarixdən) sonra 1 (bir) il müddətində saxlamaq;

2.5.4. Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) tələbi əsasında bu Qaydanın 2.6-cı bəndində nəzərdə tutulmuş sənədləri, habelə izləmə sistemi və prosedurları haqqında məlumatları həmin orqana təqdim etmək;

2.5.5. ildə bir dəfədən az olmamaqla, izləmə sisteminin və prosedurlarının işlək olmasını yoxlamaq və izlənilən məhsulları, habelə həmin məhsullarla bağlı müəyyən edilən təchizatçıları və təchiz etdiyi subyektləri qeyd etməklə yoxlama nəticələrini aktla sənədləşdirmək.

2.6. Qida subyekti aşağıdakı izləmə məlumatlarını özündə ehtiva edən sənədlərin kağız üzərində və (və ya) elektron daşıyıcılarda tərtib olunmasını və saxlanılmasını təmin etməlidir:

2.6.1. qəbul edilən və ya ötürülən məhsulun identikləşdirilmə məlumatları, miqdarı və ya həcmi və izlənilməsi üçün qida subyekti tərəfindən zəruri hesab edilən digər məlumatlar;

2.6.2. qəbul edilən məhsulun təchizatçısının və ya məhsul ilə təchiz etdiyi subyektlərin qeydiyyatı və ya təsdiqi ilə bağlı Qida Təhlükəsizliyi Reyestrindən çıxarışının nömrəsi, adı, ünvanı və əlaqə vasitələri;

2.6.3. qida və yem məhsullarının partiyasının ilkin istehsalı, istehsalı, emalı və qablaşdırılması zamanı istifadə olunan məhsulun müəssisə daxilində hərəkət ardıcıllığı ilə bağlı məlumat;

2.6.4. məhsulun qəbulu və ya ötürülməsi tarixi (gün, ay, il) və vaxtı (saat, dəqiqə);

2.6.5. qəbul edilən və ya ötürülən məhsul qida əldə edilən diri heyvan, heyvan əti və subməhsulları olduqda həmin heyvanın, o cümlədən məhsulların əldə olunduğu heyvanın identikləşdirilmə şəhadətnaməsi barədə məlumat;

2.6.6. məhsul ilə bağlı “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş aşağıdakı müvafiq icazə sənədləri barədə məlumatlar:

1. idxal sağlamlıq aktı;

2. sağlamlıq sertifikatı;

3. ixrac edilən heyvanlara, heyvan mənşəli məhsullara və xammala beynəlxalq baytarlıq sertifikatı;

4. bitki və bitkiçilik məhsullarının ixracına (təkrar ixracına) fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatı;

5. daxili karantin sertifikatı;

6. ölkə daxilində heyvanların, heyvan mənşəli məhsulların və xammalın daşınması və satışı məqsədilə onların baytarlıq normalarına cavab verməsini təsdiq edən sənəd (baytarlıq şəhadətnaməsi, arayışı, ekspertiza aktı və ya ətin, heyvan və quş cəmdəklərinin və digər məhsulların üzərinə qoyulan nişan).

## 3. Qida subyektlərinin izləmə sistemlərinə və prosedurlarına dair tələblər

3.1. İzləmə sistemləri və prosedurlarının texniki xarakteristikası və formatı bu Qayda ilə müəyyən edilmiş tələblər təmin olunmaqla qida subyekti tərəfindən müəyyən edilir.

3.2. İzləmə sistemləri və prosedurları məhsulların qida zəncirinin müxtəlif mərhələlərində bir-biri ilə əlaqələndirilməsinə, onların hərəkət ardıcıllığının, həmçinin qəbul edilən və ya ötürülən hər bir məhsulun istənilən vaxtda faktiki yerinin müəyyən edilməsinə imkan verməlidir.

3.3. İzləmə prosedurunda ən azı aşağıdakı məlumatlar əhatə olunmalıdır:

3.3.1. izləmə prosedurunun təsviri;

3.3.2. sənədləşdirilməli olan izləmə məlumatları;

3.3.3. izləmə sənədlərinin tərtib olunacağı daşıyıcının növü (kağız və (və ya) elektron);

3.3.4. məhsulun qəbulundan ötürülməsinə qədər hər bir mərhələ üzrə görülməli olan tədbirlər;

3.3.5. izləmə ilə bağlı tədbirlərin görülməsinə cavabdeh olan şəxslər;

3.3.6. partiya nömrəsinin formalaşdırılması barədə məlumatlar.

3.4. İzləmə sənədləri sistemləşdirilmiş formada tərtib olunmalı, axtarılan məlumatların dərhal və asanlıqla əldə edilməsi imkanı yaranmalı və kənar müdaxilələrdən mühafizə olunmalıdır.

3.5. Qida subyektləri izləmə sistemində texnoloji həllərdən istifadə edə bilərlər.

3.6. Qida subyektləri bazara yerləşdirdikləri və ya yerləşdirilməsi nəzərdə tutulan məhsulların asanlıqla izlənilməsini təmin etmək məqsədilə həmin məhsulların etiketlənməsini, identikləşdirilməsini və tələb olunan sənədlərlə, o cümlədən Azərbaycan Respublikasının Vergi Məcəlləsində nəzərdə tutulmuş sənədlərlə müşayiət olunmasını təmin etməlidirlər.

3.7. Qida və yem məhsullarının asanlıqla izlənilməsini təmin etmək məqsədilə onların etiketlənməsində identikləşdirilmə məlumatlarının yerləşdirilməsi Qanunun 17-ci maddəsinə uyğun olaraq həyata keçirilməlidir.